# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

# ƏMR

**№ 30** **09.04.2020-ci il**

**"Respublikada "İmmunlaşdırma həftəsi"nin keçirilməsi barədə"**

Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən hər il Avropa regionunda "İmmunlaşdırma həftəsi" keçirilir və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi bu tədbirə qoşulur.

2020-ci ildə də bu tədbirin yüksək səviyyədə həyata keçirilməsi məqsədi ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü bəndini rəhbər tutaraq

## ƏMR EDİRƏM:

1. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsinə əsasən 2020-ci ilin 20-26 aprel tarixlərində Respublikanın bütün şəhər və rayonlarında "İmmunlaşdırma həftəsi" keçirilsin.

2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın, digər tibb idarə və müəssisələrin rəhbərlərinə tövsiyə edilsin:

2.1. hər hansı səbəblərə görə immunlaşdırmadan kənarda qalan uşaqların siyahısı hazırlansın və "İmmunlaşdırma həftəsi" ərzində karantin vəziyyətinin tələblərini pozmamaq şərti ilə onların peyvəndlərə cəlb edilməsi təmin edilsin;

2.2. immunlaşdırma tədbirləri barədə əhali arasında maarifləndirmə işinin aparılması təmin edilsin;

2.3. COVİD-19 infeksiyasına görə epidemioloji vəziyyəti nəzərə alaraq uşaqların kütləvi axınının qarşısının alınması məqsədilə onların peyvəndlərə növbəli dəvət olunması təmin edilsin;

2.4. "İmmunlaşdırma həftəsi"nin nəticələri haqqında məlumat 15 may 2020-ci il tarixədək Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə təqdim edilsin.

3. Respublikanın şəhər və rayon gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın ki, immunlaşdırma tədbirlərinin təşkilinə metodiki köməkliyin göstərilməsi təmin edilsin.

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru S.Həsənovaya tapşırılsın ki, "İmmunlaşdırma həftəsi"nin yekun nəticələri haqqında məlumat 22 may 2020-ci il tarixədək Səhiyyə Nazirliyinə təqdim edilsin.

5. Səhiyyə Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri P.Abubəkirova tapşırılsın ki, "İmmunlaşdırma həftəsi" barədə kütləvi informasiya vasitələrində karantin vəziyyəti zamanı uşaqların peyvəndə gətirilmə şərtləri barədə müvafiq məlumatların verilməsi təşkil edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavinləri Nigar Əliyevaya və Viktor Qasımova həvalə edilsin.

**Nazir**

**Oqtay Şirəliyev**